Azerbaijan Arbitration Days: Driving for Transformation

DOI: https://doi.org/10.30546/224578.012.2026.505

TRANSCRIPT

CONTENTS

Panel müzakirə: Arbitrajın institutsionallaşdırılması: Azərbaycanda iqtisadi inkişafın və məhkəmə səmərəliliyinin təşviqedici amili.....168

Panel Discussion: Investment Arbitration at a Crossroads: Regional Trends and Global Implications.....191

Preface

On 24-25 October 2025, the Azerbaijan Arbitration Association and the Baku Arbitration Center organized the Azerbaijan Arbitration Days. The Student Academic Society of the Baku State University Law School participated in the event as a partner. The event opened with speeches delivered by Kamalia Mehtiyeva – Chair of the Azerbaijan Arbitration Association, Mr. Inam Karimov – Chief Justice of the Supreme Court of the Republic of Azerbaijan, Mr. Farid Ahmadov – Minister of Justice of the Republic of Azerbaijan, Mr. Charles Michel – former President of the European Council and Ms. Maria Chiara Malaguti – former President of UNIDROIT.

Within the framework of the event, a series of panel discussions were held, covering a wide range of topics related both to Azerbaijan's arbitration landscape and to international arbitration practice. The panels facilitated extensive exchanges of views on issues such as international commercial arbitration, arbitration disputes arising from the oil and gas sector, as well as the role of public policy in arbitration, alongside other contemporary developments in the field.

Among these discussions, particular emphasis was placed on the development of a domestic arbitration culture and on investment arbitration. Given their significant legal and practical relevance, this issue of the Baku State University Law Review includes summaries of the panel discussions dedicated to these two themes, as well as transcripts of the speeches delivered.

Ön söz

24-25 oktyabr 2025-ci il tarixlərində Azərbaycan Arbitraj Assosiasiyası və Bakı Arbitraj Mərkəzi tərəfindən təşkil olunan Azərbaycan Arbitraj Günləri keçirilmişdir. Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyəti bu tədbirdə tərəfdaş kimi iştirak etmişdir. Tədbir Azərbaycan Arbitraj Assosiasiyasının sədri Kəmalə Mehdiyeva, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri İnam Kərimov, Azərbaycan Respublikasının Ədliyyə naziri Fərid Əhmədov, Avropa Şurasının keçmiş prezidenti Charles Michel və UNIDROIT-in keçmiş prezidenti Maria Chiara Malagutinin çıxışları ilə başlamışdır.

Tədbir çərçivəsində həm Azərbaycanın arbitraj mühiti, həm də beynəlxalq arbitraj praktikasına dair müxtəlif mövzuları əhatə edən panel müzakirələri keçirilmişdir. Panellərdə beynəlxalq kommersiya arbitrajı, neft və qaz sektorundan irəli gələn arbitraj mübahisələri, eləcə də arbitrajda dövlət siyasətinin rolu və digər aktual məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Bu panellər arasında xüsusilə, yerli arbitaj mədəniyyətinin formalaşdırılması və investisiya arbitrajına həsr olunan müzakirələri qeyd etmək mümkündür. Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalının bu Sayında mühüm hüquqi və praktiki əhəmiyyətini nəzərə alaraq, sözügedən iki mövzu üzrə keçirilən panel müzakirələrinin icmalı, eləcə də çıxışların stenoqramları toplanmışdır.

Panel müzakirə: Arbitrajın institutsionallaşdırılması: Azərbaycanda iqtisadi inkişafın və məhkəmə səmərəliliyinin təşviqedici amili

İŞTİRAKÇILAR:

Kamil VƏLİYEV, *moderator*

Vəkil; "Dentons" beynəlxalq hüquq şirkətinin Bakı ofisinin ortağı

Şirin ƏLİYEVA

Azercell Telekom MMC-nin Hüquq və Data Strategiyası üzrə Baş Direktoru

Aytac QASIMOVA

"PAŞA Holding" MMC-nin Hüquq və Komplayens Departamentinin direktoru

Günel İSMAYILBƏYLİ

Vəkil; İstanbul, Baker McKenzie, Azərbaycan masasının müdiri

Azər ƏLİYEV

Martin Lüter Universitetinin Halle-Vittenberq Beynəlxalq İqtisadi Hüquq və Müqayisəli Hüquq kafedrasının rəhbəri

Nazlı ƏHMƏDOVA

Vəkil; "Apex Advisors" MMC-nin direktoru; Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Biznes hüquq komitəsinin sədri

Ruslan BAYRAMOV

"Legalize" hüquq şirkətinin təsisçi partnyoru

Kəmalə Mehdiyeva: *From the very early days of the Azerbaijan Arbitration Association, we had envisioned organizing the Azerbaijan Arbitration Days. As I discussed with President Michelle yesterday, the diplomatic relations between Azerbaijan and several European Union countries were quite strained at the time. Although I initially intended to organize the event in 2021, the circumstances were rather tense, which led me to postpone the initiative until 2023. However, even then, practical difficulties remained. For instance, there were no direct flights between Azerbaijan and countries such as France. Consequently, it was not yet the appropriate time to hold the event in Baku.*

Instead, with the valuable support of the Ambassador of Azerbaijan to France, Her Excellency Mrs. Leyla Abdullayeva, we organized the first Azerbaijan Arbitration Days in Paris, at the Cultural Center of the Republic of Azerbaijan.

Mr. Aliyev was among the very first individuals who believed in this project. We initially met via Zoom, where we discussed the concept in detail. From the outset, he was highly supportive and played an important role in shaping both the program and the event itself. He travelled from Baku to Paris for the occasion and that trip marked our first in-person meeting.

I was both proud and honored to welcome Mr. Aliyev as a member of the Board of Directors and to benefit from his wisdom and guidance.

Thank you very much. Kamil bey, the floor is yours.

Kamil Vəliyev: *Thank you very much. This is certainly an encouraging start to our panel discussion and, at the same time, places even greater responsibility on us.*

Good morning, ladies and gentlemen and welcome. I understand that this is a Saturday morning and that everyone has other commitments and responsibilities. Your presence here today demonstrates the importance you attach to this event and for that, I would like to express my sincere gratitude.

I usually begin by introducing myself as a partner at the Center and by mentioning several of my professional titles. However, today I am particularly honored to introduce myself as a member of the Board of the Baku Arbitration Center.

We are also privileged to have a highly distinguished group of panelists with us today. At this point, I will continue the panel discussion in Azerbaijani.

Sabahınız xeyir. Hamınızı salamlayıram və şənbə günü səhər vaxtınızı ayıraraq burada iştirak etdiyiniz, bizi dəstəklədiyiniz üçün hər birinizə təşəkkür edirəm.

Bu gün bizi olduqca aktual və maraqlı bir panel müzakirəsi gözləyir. Panelə başlayarkən, Anar bəyin təqdimatında vurğuladığı kimi, arbitraj institutunun iqtisadiyyatın inkişafındakı roluna toxunmaq istərdim. Dünənki müzakirələr zamanı müxtəlif tezislər irəli sürüldü və uğurlu arbitraj institutunun formalaşması üçün dövlət dəstəyinin, eləcə də digər dəstək mexanizmlərinin əhəmiyyəti xüsusi qeyd olundu.

Mən ilk sualı daha çox biznes və iqtisadiyyat prizmasından yönəltmək istərdim. Bu sual paneldə biznes sektorunu təmsil edən Nazlı xanım və Aytac xanıma ünvanlanır.

Sizcə, Azərbaycanda milli arbitraj institutunun formalaşması biznes mühitinin inkişafına necə töhfə verə bilər? Xüsusilə beynəlxalq tərəfdaşlıq və müqavilə münasibətləri baxımından, hüquqi sabitliyin təmin edilməsi istiqamətində bu institut hansı mövcud boşluqları aradan qaldıra bilər?

Buyurun, Şirin xanım, sözü sizə veririk.

Şirin Əliyeva: Sabahınız xeyir. İlk növbədə, hər kəsi belə mühüm və perspektivli təşəbbüs münasibətilə təbrik etmək istərdim. İnanıram ki, bu təşəbbüs gələcəkdə olduqca uğurlu nəticələr verəcəkdir.

Biznes baxımından məsələyə yanaşdıqda, şəxsi təcrübəmə əsaslanaraq qeyd edə bilərəm ki, mən fəaliyyətim ərzində dörd müxtəlif böyük sahədə çalışmışam: neft emalı, qızıl-mədən sənayesi, bank və maliyyə xidmətləri, eləcə də hazırda fəaliyyət göstərdiyim telekommunikasiya sektoru. Bu sahələrin hər birində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq təcrübəmiz olub.

Son 20 illik peşəkar fəaliyyətim göstərir ki, müqavilələrin bağlanması prosesində ən mürəkkəb məsələlərdən biri arbitraj mexanizminin və tətbiq olunacaq hüququn seçilməsi olmuşdur. Xüsusilə 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində tərəflər arasında tez-tez belə suallar yaranırdı: hansı arbitraj institutu seçilməlidir, ingilis hüququ tətbiq edilməlidirmi, arbitrlər hansı meyarlar əsasında müəyyən olunmalıdır və s.

Bu baxımdan, yerli arbitraj mərkəzinin yaradılması, ilk növbədə, ölkə iqtisadiyyatının artıq belə bir instituta hazır olduğunu göstərir. Mən hesab edirəm ki, bu, iqtisadiyyatın inkişafına əlavə stimul verən mühüm addımlardan biridir. Eyni zamanda, kommersiya təşkilatlarının, xüsusilə kiçik və orta sahibkarlıq subyektlərinin də bu prosesə hazır olduğunu müşahidə edirik.

Praktikada isə hər bir təşkilatın hüquqi müdafiə üçün kifayət qədər resurs və büdcəyə malik olmadığını görürük. Bəzi şirkətlər peşəkar hüquq xidmətlərindən və məsləhətçilərdən istifadə etmək imkanına malik olduğu halda, digərləri bu imkanlardan məhrum qalır. Məhz buna görə də yerli arbitraj institutunun mövcudluğu, mənim fikrimcə, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına ciddi töhfə verə bilər. Bu halda sahibkarlar anlayacaqlar ki, öz kommersiya hüquqlarını qorumaq üçün xarici arbitraj institutlarına müraciət etmək mütləq deyil, bu müdafiəni yerli səviyyədə də effektiv şəkildə təmin etmək mümkündür.

Bununla yanaşı, artıq tərəflərin öz yanaşmalarını, metod və prinsiplərini tətbiq edə biləcəkləri institusional bir platforma formalaşır. Biznes mühitinin və kommersiya münasibətlərinin sürətlə dəyişdiyi bir dövrdə, xüsusilə, Azərbaycanda həyata keçirilən dövlət proqramları bu ehtiyacı daha da aktuallaşdırır.

Hazırda telekommunikasiya sahəsində fəaliyyət göstərdiyim üçün xüsusi qürur hissi ilə qeyd etmək istərdim ki, bu ilin mart ayında cənab Prezident tərəfindən süni intellekt sahəsi üzrə dövlət strategiyası təsdiq edilmişdir. Məlumdur ki, süni intellekt sahəsində bir çox təşəbbüslər əsasən ABŞ, Kanada və Avropa ölkələrinin təcrübəsinə əsaslanır. Bu baxımdan, yaxın zamanda Azərbaycanda qonaq etdiyimiz Amazon kimi böyük beynəlxalq şirkətlərlə əməkdaşlıq zamanı yerli biznes subyektlərinin müəyyən hüquqi qorunma mexanizmlərinə ehtiyacı yaranır.

Biz beynəlxalq tərəfdaşlarımızla süni intellekt sahəsində əməkdaşlıq imkanlarını müzakirə edərkən, Azərbaycanda arbitraj mərkəzinin yaradıldığını da xüsusi vurğuladım. Onlar bunu böyük maraq və təəccüblə qarşılayaraq qeyd etdilər ki, 10 milyon əhalisi olan bir ölkədə arbitraj mərkəzinin yaradılması həmin ölkənin iqtisadi və institusional baxımdan artıq müəyyən inkişaf mərhələsinə çatdığını göstərir.

Düşünürəm ki, məhz belə təşəbbüslər və dövlət proqramlarının uğurlu icrasına təkan verən əsas mexanizmlərdən biri də Arbitraj Mərkəzi olacaqdır.

Kommersiya təşkilatlarının bu prosesdə roluna gəldikdə isə, həm şəxsən öz adımdan, həm də təmsil etdiyim təşkilat adından qeyd edə bilərəm ki, biz təcrübə mübadiləsinin aparılmasına və müxtəlif təlim proqramlarının dəstəklənməsinə hazırıq. Xüsusilə gənc hüquqşünaslar və universiteti yeni bitirmiş mütəxəssislər üçün "Arbitr və etika" kimi mövzular üzrə təlimlərin təşkili olduqca vacibdir.

Hesab edirəm ki, Azərbaycanın aparıcı kommersiya təşkilatları, xüsusilə ölkənin ən iri vergi ödəyiciləri sırasında olan şirkətlər bu cür təşəbbüslərin dəstəklənməsində maraqlı və fəal olacaqlar.

Kamil Vəliyev: Çox sağ olun, Şirin xanım. Fikrimcə, siz olduqca vacib bir məqama toxundunuz. Bildiyimiz kimi, sizin şirkətiniz çoxsaylı kiçik və orta sahibkarlıq subyektləri ilə əməkdaşlıq edir və məhz bu istiqamətə xüsusi diqqətin ayrılması ölkə iqtisadiyyatının inkişafı baxımından böyük əhəmiyyət daşıyır.

Bu sahədə həyata keçirdiyiniz fəaliyyətə və göstərdiyiniz dəstəyə görə sizə təşəkkürümü bildirirəm.

Aytac xanım, sizin də bu məsələlərlə bağlı fikirlərinizi eşitmək istərdik.

Aytac Qasımova: Hamınızı salamlayıram. İlk növbədə, Bakı Arbitraj Mərkəzinin yaradılması münasibətilə hər kəsi səmimi qəlbdən təbrik edir, eyni zamanda Kəmalə xanıma bu yüksək səviyyəli tədbirin təşkilinə görə təşəkkürümü bildirirəm.

Sualınıza gəldikdə isə, hesab edirəm ki, Azərbaycanda belə bir Arbitraj Mərkəzinin yaradılması yalnız hüquq mühiti üçün deyil, bütövlükdə ölkə iqtisadiyyatı baxımından da olduqca mühüm addımdır. Bu təşəbbüs həm yerli sahibkarlar, həm də xarici investorlar üçün ciddi bir mesajdır ki, artıq Azərbaycanda beynəlxalq standartlara cavab verən arbitraj institutu

formalaşdırılmışdır. Bu isə o deməkdir ki, investorlar ölkəyə kapital yatırarkən mümkün kommersiya mübahisələrinin qısa müddətdə, şəffaf və peşəkar şəkildə həll olunacağına əmin ola bilərlər.

Bildiyiniz kimi, biznes mühiti və kommersiya təşkilatları üçün konfidensiallıq və məxfilik xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan arbitraj mexanizmi ənənəvi məhkəmə prosesləri ilə müqayisədə daha əlverişli hesab olunur. Çünki arbitraj prosesində tərəflər arasında məxfiliyin qorunması təmin edilir, prosedurlar daha çevik olur və mübahisələrin həlli daha effektiv şəkildə həyata keçirilir. Bundan əlavə, arbitrlərin seçilməsinin tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən edilməsi də kommersiya subyektləri üçün mühüm üstünlüklərdən biridir.

Məhz buna görə Azərbaycanda belə bir mexanizmin yaradılması bizim üçün olduqca əlamətdar hadisədir. Özəl sektor nümayəndəsi olaraq qeyd edə bilərəm ki, indiyədək müqavilələrimizdə əsasən London, Dubay və Paris kimi beynəlxalq arbitraj mərkəzlərini nəzərdə tuturduq. Hesab edirəm ki, bundan sonra artıq bu balans dəyişəcək və biz müqavilələrimizdə Bakı Arbitraj Mərkəzini də alternativ olaraq qeyd edə, eyni zamanda tərəfdaşlarımıza da bu institutu təklif edə biləcəyik.

Bununla yanaşı, düşünürəm ki, bu təşəbbüs hüquq sahəsində yeni ixtisaslaşma istiqamətlərinin inkişafına da mühüm töhfə verəcəkdir. Xüsusilə gənc hüquqşünaslar üçün kommersiya və arbitraj hüququ sahəsində həm nəzəri, həm də praktiki bilik və təcrübə qazanmaq baxımından geniş imkanlar yaranacaqdır.

Kamil Vəliyev: Təşəkkür edirəm, Aytac xanım. Təbii ki, özəl sektorun, xüsusilə də kommersiya sektorunun bu təşəbbüsə verdiyi dəstək danılmaz əhəmiyyət daşıyır. Ümid edirəm ki, növbəti illərdə məhz bu dəstəyin nəticəsində arbitraj institutunun formalaşması və inkişafı istiqamətində daha mühüm nəticələrin şahidi olacağıq.

Panelimizin əsas istiqamətlərindən biri də daxili və beynəlxalq arbitraj arasında qarşılıqlı əlaqələrin müzakirəsidir. İstərdim ki, bu mövzuya da toxunaq.

Hazırda biz yeni "Arbitraj haqqında" qanunun formalaşdırdığı hüquqi çərçivə daxilində fəaliyyət göstəririk və təbii ki, gələcək fəaliyyət də bu əsasda qurulacaqdır. Bununla yanaşı, Azərbaycanda daha əvvəlki dövrlərdə də "Beynəlxalq arbitraj haqqında" qanun, eləcə də arbitrajla əlaqəli müxtəlif prosessual hüquq normaları mövcud olub. Bu baxımdan həm mövcud praktika, həm də gələcək inkişaf perspektivləri ilə bağlı fikirləriniz bizim üçün olduqca maraqlıdır.

Xüsusilə belə bir sual diqqət çəkir: Azərbaycanın arbitraj sahəsində keçdiyi və gələcəkdə keçəcəyi inkişaf yolu beynəlxalq arbitraj təcrübəsi ilə müqayisədə hansı xüsusiyyətlərlə fərqlənir? Eyni zamanda, arbitraj institutunun mübahisələrin həlli sahəsində əsas potensialı nədən ibarətdir?

Günel xanım, bu istiqamətdə sizin fikirlərinizi eşitmək istərdik.

Günel İsmayılbəyli: Çox sağ olun, Kamil bəy. Mən də ilk növbədə Kəmalə xanıma bu gözəl tədbirin təşkilinə görə təşəkkürümü bildirmək istəyirəm. Bizim üçün burada iştirak etmək və bu qədər vacib hüquqi məsələləri birlikdə müzakirə etmək böyük məmnunluqdur.

Kəmalə xanım bir qədər əvvəl ilk Arbitraj Günləri barədə danışarkən həmin günləri mən də xatırladım. Xatırlayıram ki, mən də həmin tədbirdə iştirak etmişdim və xüsusilə sizin ilk çıxışınız yaddaşımda qalıb. Əgər yanlış xatırlamıramsa, siz professorunuzun bir nümunəsini qeyd etmişdiniz: bir əl təkbaşına səs çıxara bilməz, lakin iki əl birləşdikdə artıq səs yaranır. Bu misal əslində çox mühüm bir mesaj ifadə edirdi – birlikdə hərəkət etdikdə, bir-birimizə dəstək olduqda, artıq mümkünsüz görünən məsələlərin belə həyata keçirilməsi mümkün olur.

Bu gün biz həmin ideyaların real nəticəsini görürük. Bakı Arbitraj Mərkəzinin yaradılması münasibətilə hər kəsi təbrik edirəm və xüsusi sevinc hissi keçirirəm ki, ilk təşəbbüslərdən etibarən bu prosesin iştirakçısı olduğum kimi, bu gün də burada iştirak edirəm. Səmimi şəkildə inanıram ki, bu Mərkəz gələcəkdə daha da inkişaf edəcək və beynəlxalq səviyyədə nüfuz qazanacaqdır. Hətta düşünürəm ki, yaxın gələcəkdə müqavilələrdə qarşı tərəflərin birbaşa Bakı Arbitraj Mərkəzini arbitraj institutu kimi təklif etdiklərinin şahidi olacağıq. Bu istiqamətdə inamımız olduqca böyükdür.

Hesab edirəm ki, istər vəkillər, istər xarici şirkətlərdə çalışan hüquqşünaslar, istərsə də biznes mühitinin nümayəndələri olaraq burada iştirak edən hər birimizin bu prosesdə xüsusi rolu və məsuliyyəti vardır.

Sualınıza gəldikdə isə, mən mövzu ilə əlaqədar olaraq daha çox xarici arbitraj və məhkəmə qərarlarının tanınması və icrası məsələsinə toxunmaq istərdim. Bildiyiniz kimi, xarici arbitraj qərarlarının tanınması arbitraj institutunun effektivliyini müəyyən edən ən mühüm meyarlardan biridir. İndiyədək biz əsasən ilkin mərhələni, yəni beynəlxalq kommersiya müqavilələrində arbitraj sazişlərinin necə nəzərdə tutulmasını müzakirə edirdik. Başqa sözlə, əsas məqsəd Azərbaycanı arbitraj yeri kimi seçmək və Bakı Arbitraj Mərkəzinin müqavilələrdə nəzərdə tutulmasını təşviq etmək idi.

Lakin uğurlu arbitraj sazişinin əsas göstəricilərindən biri də gələcəkdə həmin saziş əsasında qəbul olunmuş arbitraj qərarının tanınması və icrasının mümkün olmasıdır. Bu isə artıq dövlətlərin və xüsusilə arbitraj qərarlarının tanınması sahəsində ən çox müraciət olunan ölkələrin üzərinə mühüm məsuliyyət qoyur.

Məlum olduğu kimi, xarici arbitraj qərarlarının tanınması və icrası əsasən Nyu York Konvensiyası ilə tənzimlənir. Həmin Konvensiya artıq 170-dən çox dövlət, o cümlədən Azərbaycan tərəfindən ratifikasiya olunmuşdur. Arbitrajın əsas üstünlüklərindən biri də məhz arbitraj qərarlarının müxtəlif ölkələrdə icra edilə bilməsidir. Bu xüsusiyyət ənənəvi məhkəmə

qərarlarından fərqli olaraq, arbitrajı beynəlxalq kommersiya münasibətləri üçün daha cəlbedici edir. Nəticə etibarilə, tərəflər üçün əsas məsələ qəbul olunmuş qərarın real şəkildə icra edilə bilməsidir. Çünki məhz qərarların effektiv icrası arbitraj mexanizminin praktik baxımdan işlək olduğunu və dövlətlərin öz beynəlxalq öhdəliklərini yerinə yetirdiyini göstərir.

Bu kontekstdə xarici arbitraj qərarlarının tanınmasından imtina üçün ən mühüm istisna əsaslardan biri kimi "publik qayda" anlayışı çıxış edir. Azərbaycan qanunvericiliyində bu anlayışın tətbiqinə keçməzdən əvvəl, düşünürəm ki, publik qaydanın beynəlxalq hüquq təcrübəsində necə formalaşdığına qısaca nəzər salmaq vacibdir.

"Publik qayda" anlayışına ilk dəfə 1927-ci il Cenevrə Konvensiyası çərçivəsində rast gəlinir.[1] Həmin sənəddə "ictimai qayda və hüquq prinsiplərinə ziddiyyət" ifadəsindən istifadə olunurdu. Daha sonra isə Nyu York Konvensiyası hazırlanarkən daha dar və ümumi bir termin olaraq "publik qayda" anlayışı qəbul edildi.[2] Konvensiyada sadəcə qeyd olunur ki, əgər arbitraj qərarı həmin dövlətin publik qaydasına ziddirsə, onun tanınmasından və icrasından imtina edilə bilər. Bununla belə, Konvensiya publik qaydanın dəqiq anlayışını vermir və bu məsələni açıq saxlayır.

Hesab edirəm ki, bu yanaşma təsadüfi deyildi. Çox güman ki, Konvensiyanın müəllifləri publik qaydanın məzmununun dövlətlərin daxili hüquqi, iqtisadi, siyasi və hətta mənəvi xüsusiyyətlərinə uyğun şəkildə formalaşmasına imkan yaratmaq istəyirdilər. Bununla yanaşı, onlar anlayırdılar ki, bəzi dövlətlər bu anlayışı daha geniş şərh edərək müəyyən hallarda ondan sui-istifadə edə bilərlər. Buna baxmayaraq, dövlətlərə belə bir istisna hüququnun verilməsi vacib hesab olunurdu, çünki hər bir ölkənin öz fundamental hüquqi prinsipləri və ictimai maraqları mövcuddur.

Bu səbəbdən publik qayda anlayışı həm milli, həm beynəlxalq, hətta transmilli səviyyədə müxtəlif formalarda tətbiq oluna bilər. Lakin Konvensiyada nəzərdə tutulan publik qayda daha çox beynəlxalq publik qayda anlayışına istinad edir və arbitraj qərarlarının tanınması zamanı əsasən bu yanaşmadan istifadə edilməlidir. Bununla yanaşı, dövlətlərin daxili hüquq sistemində mövcud olan fundamental prinsiplər də nəzərə alınır.

Eyni zamanda, Konvensiyanın mətnindən görünür ki, publik qayda anlayışı yalnız maddi hüquqa deyil, həm də prosessual məsələlərə aid edilə bilər. Maddi publik qayda dedikdə əsasən müqavilələrin təfsiri, fors-major halları və müəyyən fundamental hüquqi prinsiplər nəzərdə tutulur. Hətta bəzi hüquq sistemlərində müddətlərlə bağlı məsələlər də maddi publik qayda çərçivəsində qiymətləndirilir.

[1] Geneva Convention on the Execution of Foreign Arbitral Awards, mad. 1(e) (1927).

[2] United Nations Convention on the Recognition and Enforcement of Foreign Arbitral Awards [Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında Konvensiya], mad. V.2.(b) (1958).

Prosessual publik qayda baxımından isə həm Konvensiyada, həm də milli qanunvericilikdə müəyyən əsaslar nəzərdə tutulur. Adətən, bu əsaslar tərəflərin, xüsusilə də işi uduzmuş tərəfin təşəbbüsü ilə irəli sürülür. Lakin publik qayda istisnasının xüsusiyyəti ondan ibarətdir ki, məhkəmə bu məsələni öz təşəbbüsü ilə də nəzərə ala bilər.

Bu, əsasən iki halda: birincisi, arbitraj qərarı dövlətin publik qaydasını pozduqda; ikincisi isə, arbitrajda baxılması mümkün olmayan bir mübahisəyə arbitraj tərəfindən baxıldıqda mümkündür. Çünki hər bir dövlət öz qanunvericiliyində hansı mübahisələrin arbitraj predmeti ola biləcəyini müəyyən edir. Tərəflərə geniş sərbəstlik verilsə də, bəzi kateqoriya mübahisələrin arbitraj qaydasında həllinə müəyyən məhdudiyyətlər tətbiq olunur.

Əgər belə məhdudiyyətlərə baxmayaraq mübahisəyə arbitraj tərəfindən baxılıb və qərar qəbul edilibsə, lakin həmin mübahisə milli qanunvericiliyə əsasən arbitrajın səlahiyyət dairəsinə aid deyildirsə, bu halda arbitraj qərarının tanınması və icrası mümkün olmaya bilər.

Kamil Vəliyev: Günel xanım, publik qayda məsələsinə toxunduqda, burada arbitraj ilə məhkəmə sisteminin qarşılıqlı əlaqəsi və xüsusilə arbitraj qərarlarının icrası baxımından vahid məhkəmə təcrübəsinin formalaşdırılması məsələsi xüsusi əhəmiyyət kəsb edir. Siz də çıxışınızda bu məqama diqqət çəkdiniz.

Doğrudan da, yeni "Arbitraj haqqında" qanun qəbul edilərkən ən çox müzakirə olunan məsələlərdən biri məhz publik qayda anlayışının məzmunu və onun məhkəmələr tərəfindən necə təfsir ediləcəyi idi. Bu gün də əsas suallardan biri odur ki, milli məhkəmələr publik qayda anlayışına hansı çərçivədə yanaşacaq və bu anlayış praktikada necə tətbiq olunacaq. Hesab edirəm ki, sizin çıxışınız bu məsələyə mühüm aydınlıq gətirdi.

Mən istərdim ki, məhkəmə ilə arbitraj institutunun qarşılıqlı münasibətləri fonunda bu mövzunu bir qədər də geniş müzakirə edək. Bu baxımdan, yerli və beynəlxalq arbitraj institutlarının fəaliyyətində mövcud olan ortaq və fərqli cəhətlər, xüsusilə akademik və praktik perspektivdən bizim üçün maraq doğurur.

Azər bəy, bu məsələ ilə bağlı sizin yanaşmanızı və perspektivinizi eşitmək istərdik.

Azər Əliyev: Hər vaxtınız xeyir. Mən də burada olmaqdan çox məmnunam və bunu özüm üçün böyük şərəf hesab edirəm. İlk növbədə Kəmalə xanıma təşəkkürümü bildirmək və hər kəsi Bakı Arbitraj Mərkəzinin yaradılması münasibətilə təbrik etmək istəyirəm. Çünki bu Mərkəz bizim ümumi layihəmizdir, Azərbaycan üçün həyata keçirilən mühüm təşəbbüsdür. Bu prosesin əsas yükünü böyük zəhmət və məsuliyyətlə öz üzərinə götürdüyünə görə Kəmalə xanıma xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Müzakirə olunan məsələlərə münasibətdə isə, ilk növbədə biznes mühiti ilə bağlı məsələyə toxunmaq istərdim. Şübhəsiz ki, arbitraj ilk növbədə biznes münasibətlərinə xidmət edən bir mexanizmdir. Lakin eyni zamanda arbitrajın özü də ayrıca bir iqtisadi fəaliyyət sahəsi, yəni bir növ biznes modelidir və bu amil olduqca vacibdir.

Məhz bu prizmadan yanaşdıqda, Bakı şəhərinin və ümumilikdə Azərbaycanın müəyyən üstünlüklərindən səmərəli şəkildə istifadə etmək imkanımız var. Azərbaycan coğrafi baxımdan əlverişli mövqedə yerləşir. Hesab edirəm ki, gələcəkdə nəqliyyat və aviasiya imkanlarımızın daha da inkişaf etməsi ölkənin beynəlxalq əlçatanlığını artıracaqdır. Bununla yanaşı, ölkəmizin əlverişli iqlimi, inkişaf etmiş mehmanxana infrastrukturu və müasir şəhər mühiti mövcuddur. Xarici qonaqlar da böyük məmnuniyyətlə təsdiq edə bilərlər ki, Azərbaycanda beynəlxalq arbitraj proseslərinin təşkili üçün olduqca əlverişli şərait yaradılıb. Bu isə, öz növbəsində, ölkə iqtisadiyyatına ciddi töhfə verə biləcək bir istiqamətdir. Bir çox xarici ölkələrdə arbitraj artıq uzun illərdir formalaşmış və dayanıqlı iqtisadi fəaliyyət sahəsinə çevrilmişdir.

İkinci mühüm məqam isə beynəlxalq arbitraj sisteminin mövcud vəziyyəti ilə bağlıdır. Əgər bugünkü reallığa nəzər salsaq, görərik ki, beynəlxalq arbitraj sistemi əsasən Nyu York Konvensiyasının əsasında formalaşmışdır. Maraqlıdır ki, bu Konvensiya soyuq müharibənin ən gərgin dövründə qəbul edilmiş və həm SSRİ, həm də Qərb dövlətləri tərəfindən ratifikasiya olunmuşdur. Bu fakt özü göstərir ki, dövlətlər arasında siyasi qarşıdurmaların mövcud olduğu bir dövrdə belə, neytral və etibarlı mübahisə həlli mexanizminin yaradılmasına ehtiyac duyulurdu.

Hazırda isə beynəlxalq münasibətlərdə kifayət qədər mürəkkəb və gərgin bir mərhələ müşahidə olunur. Müəyyən hallarda dövlətlər arasında hüquqi münasibətlərdə də ciddi ziddiyyətlər yaranır və bu, arbitraj qərarlarının tanınması və icrası sahəsinə də təsirsiz ötüşmür. Məhz bu səbəbdən artıq ənənəvi arbitraj mərkəzləri ilə bağlı da müəyyən suallar ortaya çıxır. Məsələn, London və ya Paris kimi arbitraj mərkəzlərində qəbul edilən qərarların, xüsusilə regionumuzla əlaqəli mübahisələr baxımından, bəzi hallarda tanınması və icrası əlavə hüquqi müzakirələr doğura bilər.

Bu kontekstdə Azərbaycan kimi neytral mövqeyə malik ölkələr üçün yeni imkanlar yaranır. Regionda da bu tendensiyanı açıq şəkildə müşahidə edirik. Son illərdə müxtəlif regional arbitraj mərkəzlərinin yaradılması bu ehtiyacın göstəricisidir. Bu baxımdan Astana Beynəlxalq Maliyyə Mərkəzi və onun nəzdində fəaliyyət göstərən arbitraj mərkəzi mühüm nümunələrdən biridir. Həmin mərkəz artıq kifayət qədər fəal fəaliyyət göstərir və bir çox həmkarlarımız da bu proseslərdə iştirak edirlər. Qardaş Qazaxıstanda formalaşdırılmış bu model region üçün maraqlı və uğurlu nümunələrdən hesab olunur.

Azərbaycanda Arbitraj Mərkəzinin yaradılması da bizim üçün mühüm bir imkandır. Bu, həm daxili, həm də beynəlxalq arbitraj sahəsində beynəlxalq standartlara daha da yaxınlaşmağa şərait yaradır. Faktiki olaraq, bu gün Azərbaycanda qəbul edilmiş "Arbitraj haqqında" qanun UNCITRAL Model Qanununa əsaslanır və beynəlxalq arbitraj sahəsində kifayət qədər müasir hüquqi tənzimləmə təqdim edir.

Burada əsas məqamlardan biri ondan ibarətdir ki, daxili və beynəlxalq arbitraj arasında seçim əsasən tərəflərin razılığına buraxılmışdır. Digər hallarda isə beynəlxalq arbitrajın tətbiqi üçün mübahisədə xarici elementin mövcudluğu tələb olunur.

Eyni zamanda beynəlxalq arbitrajın daha geniş yayılması Azərbaycanın iştirak etdiyi və ya Azərbaycan subyektləri ilə bağlı olan mübahisələrə də əhəmiyyətli təsir göstərə bilər. Məsələn, xarici şirkətlərin törəmə müəssisələri ilə Azərbaycan şirkətləri arasında yaranan mübahisələrin beynəlxalq arbitraj çərçivəsində həlli mümkündür.

Dünən hörmətli həmkarımız professor Klein-in də qeyd etdiyi kimi, müasir hüquq sistemlərində beynəlxalq və daxili arbitraj arasında fərqlərin getdikcə azalması artıq formalaşmış tendensiyadır. Məsələn, Almaniya Federativ Respublikasının Mülki Prosessual Məcəlləsində beynəlxalq və daxili arbitraj arasında ciddi fərqləndirmə aparılmır.[3]

Ümid edirəm ki, gələcəkdə Azərbaycan məhkəmələri də məhz bu yanaşmanı tətbiq edəcək, arbitraj institutuna minimal müdaxilə prinsipi əsasında yanaşacaq və bununla da daxili arbitrajın inkişafına mühüm töhfə verəcəkdir.

Kamil Vəliyev: Çox sağ olun, Azər bəy. Hesab edirəm ki, siz məsələyə olduqca maraqlı və fərqli bir perspektivdən yanaşdınız. Xüsusilə qlobal proseslər fonunda Azərbaycanın malik olduğu əlverişli imkanların və üstünlüklərin vurğulanması çox əhəmiyyətli idi. Eyni zamanda, Bakı və ümumilikdə Azərbaycanın gələcəkdə arbitraj sahəsində regional və beynəlxalq mərkəzlərdən birinə çevrilə bilməsi ilə bağlı perspektivləri də kifayət qədər aydın şəkildə ortaya qoydunuz.

Bu baxımdan mən istərdim ki, Nazlı xanımın da fikirlərini eşidək. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq arbitraj mərkəzi kimi formalaşması məsələsinə, xüsusilə Azər bəyin toxunduğu məqamlar və mövcud qlobal proseslər fonunda siz necə yanaşırsınız?

Nazlı Əhmədova: Çox sağ olun, Kamil bəy. Mən də digər iştirakçılar kimi ilk növbədə Kəmalə xanıma təşəkkürümü bildirmək və hər kəsi təbrik etmək istəyirəm. Açığı, giriş hissəsini çox uzatmadan birbaşa hüquqi məsələlərə keçmək istərdim. Bununla belə, xüsusi olaraq vurğulamaq istəyirəm ki,

[3] *See* Zivilprozessordnung [ZPO] [German Code of Civil Procedure], § 1025 (2005). Available at: https://share.google/zr5F8bfnakOy3hwCh (last visited Apr. 17, 2026).

Kəmalə xanıma Azərbaycan dilində arbitraj mövzusunun bu səviyyədə və bu miqyasda ilk dəfə müzakirə olunması üçün yaratdığı imkana görə ayrıca təşəkkür borcluyuq.

Bu, əslində, çox mühüm bir məsələdir və hüquqşünas, xüsusilə vəkil olaraq bunun əhəmiyyətini ayrıca qeyd etmək istəyirəm. Çünki arbitrajla bağlı bu qədər geniş və peşəkar müzakirə ilk dəfədir ki, birbaşa Azərbaycan dilində aparılır. Belə olduqda biz hüquqi anlayışları əvvəl xarici dilə tərcümə edib, daha sonra yenidən yerli auditoriya üçün Azərbaycan dilinə uyğunlaşdırmağa məcbur qalmırıq. Bu isə hüquqi terminologiyanın və ilkin hüquqi məzmunun daha dəqiq qorunmasına imkan yaradır. Hüquqşünaslar üçün bu məqam olduqca vacibdir.

Bakı Arbitraj Mərkəzinin gələcəkdə cəlbedici beynəlxalq arbitraj platformasına çevrilməsi baxımından bir sıra üstünlüklərimiz mövcuddur. Bunlardan biri, əlbəttə ki, Azərbaycanın coğrafi mövqeyi və müxtəlif nəqliyyat yollarının kəsişməsində yerləşməsidir. Lakin mən hesab edirəm ki, bununla yanaşı, daha vacib və fərqləndirici bir xüsusiyyətimiz də var – bu coğrafi mövqe xalqımızın mentalitetində və düşüncə tərzində xüsusi multikultural ənənə formalaşdırıb.

Bu, sadəcə formal şəkildə səsləndirilən bir fikir deyil. Həqiqətən də, Azərbaycan cəmiyyəti müxtəlif mədəniyyətlərə qarşı yüksək tolerantlığı ilə seçilir və multikulturalizm bizim üçün sonradan öyrədilmiş deyil, təbii şəkildə formalaşmış bir xüsusiyyətdir. Hesab edirəm ki, bu amil arbitraj mühiti üçün olduqca böyük üstünlükdür və biz bundan həm Bakı Arbitraj Mərkəzinin inkişafında, həm də ümumilikdə ölkədə arbitraj ənənəsinin formalaşmasında səmərəli şəkildə istifadə edə bilərik.

Eyni zamanda, ölkəmizdə insanların əksəriyyəti ən azı iki dil bilir, bir çoxları isə üç və ya dörd dildə sərbəst ünsiyyət qura bilir. Xüsusilə gənc nəsil arasında bir neçə dildə akademik və peşəkar səviyyədə özünü ifadə edə bilən hüquqşünasların sayı getdikcə artır. Bundan əlavə, multikultural mühitin təsiri nəticəsində cəmiyyətimizdə qarşı tərəfi dinləmək, anlamaq və fərqli yanaşmaları qəbul etmək kimi mühüm bacarıqlar da formalaşıb. Arbitraj üçün isə məhz bu keyfiyyətlər xüsusi əhəmiyyət daşıyır.

Bütün bu amilləri birlikdə nəzərə aldıqda düşünürəm ki, Bakı beynəlxalq arbitraj mərkəzi kimi kifayət qədər cəlbedici potensiala malikdir.

Biznes subyektlərinin nə üçün məhz Bakını arbitraj məkanı kimi seçə biləcəyi məsələsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, hazırda daxili və beynəlxalq arbitraj arasında müəyyən fərqlər hələ də mövcuddur. Bu fərqlərin gələcəkdə hansı istiqamətdə inkişaf edəcəyini və nə dərəcədə aradan qalxacağını isə zaman göstərəcəkdir. Xüsusilə də kiçik və orta sahibkarlıq subyektlərinin nə üçün daxili arbitrajı seçməli olduqları məsələsi üzərində dayanmaq istərdim. Çünki indiyədək Azərbaycanda arbitraj imkanları əsasən iri biznes strukturları üçün əlçatan olub. Bunun başlıca səbəbi arbitraj institutunun ölkəmizdə daha çox beynəlxalq müstəvidə formalaşması idi.

Beynəlxalq arbitraj proseslərində iştirak etmək, tribunallar və xarici məhkəmələr qarşısında hüquqi mövqeni peşəkar şəkildə müdafiə edə biləcək komanda saxlamaq ciddi maliyyə resursları tələb edir. Təbii ki, bu imkan əsasən iri şirkətlər üçün əlçatandır, kiçik və orta sahibkarlar isə çox zaman bu imkanlardan məhrum qalırlar.

Əslində, bu tendensiya yalnız Azərbaycana xas deyil; dünyanın bir çox ölkəsində oxşar vəziyyət müşahidə olunur. Lakin artıq Azərbaycanda yeni arbitraj mərkəzinin yaradılması bu baxımdan mühüm dəyişiklik vəd edir.

Mərkəzin qaydaları ilə yaxından tanış olmuşam və deyə bilərəm ki, onlar olduqca peşəkar və müasir yanaşma əsasında hazırlanıb. Qaydalarda biznes mühitinin spesifik ehtiyacları, eləcə də arbitraj proseslərinin incə hüquqi aspektləri xüsusi diqqətlə nəzərə alınıb. Bu sahənin mütəxəssisləri həmin müddəaların biznes yönümlü xarakterini dərhal hiss edəcəklər.

Biznes subyektləri üçün ən vacib məsələlərdən biri, şübhəsiz ki, məxfilik prinsipidir. Aytac xanımın da qeyd etdiyi kimi, arbitrajın əsas üstünlüklərindən biri məhz tərəflərin kommersiya maraqlarının və məlumatlarının konfidensial şəkildə qorunmasıdır. Bununla yanaşı, arbitrajın təqdim etdiyi çeviklik yalnız vaxt baxımından üstünlüklə məhdudlaşmır, prosesin strukturunda da biznes üçün mühüm rahatlıqlar mövcuddur.

Bu baxımdan diqqətçəkən məqamlardan biri odur ki, Bakı Arbitraj Mərkəzinin qaydalarına əsasən arbitraj qərarlarının layihələri müəyyən müddət ərzində Mərkəzin katibliyi tərəfindən nəzərdən keçirilə bilər. Bu mexanizm əslində tribunal üzvlərinə əlavə ekspert dəstəyi göstərilməsi deməkdir. Başqa sözlə, peşəkar katiblik tərəfindən qərar layihəsinə hüquqi və prosessual baxımdan baxılması mümkün səhvlərin qarşısının alınmasına xidmət edir.

Bu yanaşma beynəlxalq praktikada International Chamber of Commerce modelinə əsaslanır. Məsələn, UNCITRAL arbitraj qaydalarında belə bir mexanizm nəzərdə tutulmur. Ad hoc arbitraj proseslərində arbitrlər maddi və ya prosessual səhvə yol verdikdə, həmin qərar olduğu kimi qüvvədə qala bilər və sonradan bu səhvin aradan qaldırılması üçün tərəflər arbitrajın yeri üzrə məhkəmələrə müraciət etməli olurlar. Bu isə artıq müvafiq dövlətin qanunvericiliyinə uyğun şəkildə uzun və xeyli vəsait tələb edən hüquqi prosedurların başlanması deməkdir.

Belə hallarda proses bəzən biznes subyektlərinin gözləntilərini ən azı bir neçə il geriyə ata bilir. Halbuki Bakı Arbitraj Mərkəzinin təqdim etdiyi layihəyə baxış mexanizmi tribunal üzvlərinə faktiki olaraq yüksək keyfiyyətli və əlavə xərc tələb etməyən hüquqi dəstək almaq imkanı yaradır.

Hesab edirəm ki, sahibkarların bu məsələlər barədə maarifləndirilməsi Mərkəzin ən mühüm üstünlüklərindən birinə çevrilə bilər. Biznes nümayəndələri arbitrajın təqdim etdiyi bu imkanlar barədə daha çox məlumat əldə etdikcə, Bakı Arbitraj Mərkəzinin onlar üçün nə dərəcədə effektiv və faydalı mexanizm olduğunu daha aydın şəkildə görəcəklər.

Kamil Vəliyev: Dəyərli fikirləriniz üçün təşəkkür edirəm, Nazlı xanım. Müzakirələr zamanı biz arbitrajın Azərbaycanda gələcək inkişafını zəruri edən obyektiv amillərdən, eləcə də arbitraj institutunun fəaliyyətinin düzgün təşkil olunması məsələlərindən danışdıq. Siz də çıxışınızda Bakı Arbitraj Mərkəzinin qaydalarına toxunaraq bu istiqamətdə mühüm məqamları vurğuladınız.

Mən istərdim ki, indi məsələyə bir qədər fərqli aspektdən yanaşaq və arbitraj ilə məhkəmə hakimiyyəti arasındakı qarşılıqlı münasibətləri müzakirə edək. Çünki dünən keçirilən panellərdə də bu mövzuya xüsusi diqqət ayrılmışdı. Xüsusilə Türkiyədən olan panelistlərin çıxışlarında həm Türkiyə təcrübəsi, həm də digər ölkələrin yanaşmaları ilə bağlı maraqlı fikirlər səsləndirildi.

Müzakirələr zamanı qeyd olundu ki, arbitraj institutunun uğurlu inkişafı üçün məhkəmə sistemi ilə arbitraj arasındakı münasibətlərin düzgün qurulması, bu sahədə hüquqi və institusional fundamentin sağlam şəkildə formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Başqa sözlə, məhkəmələrin arbitraj institutuna münasibəti və bu sahədə formalaşacaq praktika arbitrajın gələcək inkişafına birbaşa təsir göstərəcək əsas amillərdəndir.

Bu baxımdan Ruslan bəyə müraciət etmək istərdim. Sizcə, Azərbaycanda arbitraj institutunun inkişafı üçün məhkəmələrlə arbitraj arasındakı qarşılıqlı əlaqələr hansı formada tənzimlənməlidir? Mövcud hüquqi tənzimləmə bu baxımdan yetərlidirmi? Eyni zamanda, bu proses çərçivəsində arbitraj institutunun və məhkəmələrin rolu necə müəyyən olunmalıdır?

Bu suallar müəyyən mənada bir qədər əvvəl Günel xanımın toxunduğu məsələləri də yenidən gündəmə gətirir. Buna görə də istərdim ki, daha sonra Günel xanım da xüsusilə prosedural mexanizmlərin və ayrı-ayrı hüquqi konsepsiyaların tətbiqi baxımından bu mövzu ilə bağlı fikirlərini bölüşsün.

Buyurun, Ruslan bəy.

Ruslan Bayramov: Sabahınız xeyir. Mən də ilk növbədə Kəmalə xanıma təşəkkürümü bildirmək istəyirəm. Hesab edirəm ki, böyük zəhmət və fədakarlıq nəticəsində çox mühüm bir iş həyata keçirilmişdir və ümid edirəm ki, bu təşəbbüs bütövlükdə hüquq ictimaiyyəti üçün faydalı olacaqdır.

Belə bir auditoriya qarşısında çıxış etmək həm böyük şərəf, həm də ciddi məsuliyyətdir. Vaxtınızı çox almamaq üçün birbaşa mövzuya keçmək istərdim.

Ümumiyyətlə, məhkəmələr ilə arbitraj institutları arasındakı münasibətlər kifayət qədər paradoksal xarakter daşıyır. Bir tərəfdən arbitraj tərəflərin razılığı əsasında formalaşan və məhkəmə mühakiməsinə alternativ hesab olunan mübahisə həlli mexanizmidir. Digər tərəfdən isə arbitraj prosesinin müxtəlif mərhələlərində məhkəmələrin iştirakı və dəstəyi qaçılmaz olur. Bu səbəbdən arbitraj ilə məhkəmələr arasındakı münasibətlər müəyyən mənada əməkdaşlıq və qarşılıqlı asılılıq arasında formalaşır.

Eyni zamanda qeyd edilməlidir ki, bu əməkdaşlıq tam bərabər tərəflər arasında qurulan münasibət deyil. Uzun illər ərzində ölkələrdə məhkəmə sistemi arbitraj institutu olmadan fəaliyyət göstərə bilmişdir. Lakin arbitraj institutunun məhkəmə sistemindən tamamilə müstəqil şəkildə mövcud olması praktik olaraq mümkün deyil. Bu baxımdan məhkəmələrin arbitraj prosesində oynadığı rol xüsusi əhəmiyyət daşıyır.

Qanunvericilik baxımından yanaşdıqda, məhkəmələrin arbitraj prosesindəki rolunu xronoloji olaraq üç mərhələyə bölmək mümkündür: arbitraj prosesindən əvvəlki mərhələ, arbitraj prosesi zamanı və arbitrajdan sonrakı mərhələ.

Arbitraj icraatından əvvəl məhkəmələrin iştirakı əsasən üç halda tələb olunur: arbitraj sazişinin icrasının təmin edilməsi, arbitrlərin təyin olunması və arbitraj tribunalının yurisdiksiyası ilə bağlı məsələlərin həlli.

Arbitraj prosesi başladıqdan sonra isə prinsip etibarilə, tribunal mübahisəyə müstəqil şəkildə baxmalıdır. Bununla belə, müəyyən hallarda milli məhkəmələrin iştirakı yenə də zəruri olur. Bu hallardan ən mühümü müvəqqəti təminat tədbirlərinin tətbiqidir.

Burada iştirak edənlərin əksəriyyəti hüquqşünas olduğundan müvəqqəti təminat tədbirlərinin mahiyyəti üzərində geniş dayanmaq istəmirəm. Lakin qeyd etmək lazımdır ki, arbitraj prosesi zamanı müəyyən əmlakın qorunması, bəzi hərəkətlərin məhdudlaşdırılması və ya gələcək qərarın icrasının təmin edilməsi məqsədilə müvəqqəti təminat tədbirlərinin görülməsinə ehtiyac yarana bilər. Belə hallarda tərəflər arbitraj tribunalına müraciət edə bilirlər.

Arbitraj tribunalının müvəqqəti təminat tədbirləri tətbiq etmək səlahiyyəti UNCITRAL Model Qanununda nəzərdə tutulmuşdur[4] və Azərbaycan Respublikasının "Arbitraj haqqında" Qanununda da bu imkan öz əksini tapmışdır.[5] Bununla belə, praktikada bəzi hallarda bu mexanizmin tətbiqi mümkün olmur. Məsələn, bəzi hüquq sistemlərində arbitraj tribunalına belə səlahiyyətlərin verilməsi uzun müddət qəbul edilməmişdir. Tarixi baxımdan dövlətlər hesab edirdilər ki, məcburedici xarakter daşıyan müvəqqəti təminat tədbirləri yalnız dövlət məhkəmələrinin səlahiyyətində olmalıdır. Qeyd olunur ki, bu yanaşmadan imtina edən son ölkələrdən biri Argentina olmuşdur.

Digər problem tribunalın hələ formalaşmamış olması ilə bağlıdır. Çünki müvəqqəti təminat tədbirlərinə dair qərarın qəbul edilməsi üçün tribunalın yaradılması zəruridir və bu proses müəyyən vaxt tələb edir. Halbuki bəzi hallarda operativ müdaxilə vacib olur.

Bundan əlavə, arbitraj tribunalının tətbiq etdiyi müvəqqəti təminat tədbirləri, əsasən, arbitraj sazişinin tərəflərinə şamil edilir. Lakin praktikada

[4] Daha ətraflı bax: UNCITRAL Model Law on International Commercial Arbitration, mad. 17 (2006).

[5] "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 27.1 (2024).

üçüncü şəxslərə münasibətdə də müəyyən tədbirlərin görülməsi lazım gələ bilər. Məsələn, bank hesablarının dondurulması kimi tədbirlər bir sıra hallarda üçüncü şəxslərin iştirakını tələb edir.

Digər mühüm məsələ isə müvəqqəti təminat tədbirlərinin beynəlxalq səviyyədə icrası ilə bağlıdır. Nyu York Konvensiyası əsasən arbitraj qərarlarının tanınması və icrasını tənzimləyir. Buna görə də müvəqqəti təminat tədbirlərinin arbitraj qərarı hesab olunub-olunmaması məsələsi müəyyən hüquqi problemlər yarada bilir. Nəticədə, xarici ölkədə qəbul edilmiş müvəqqəti təminat tədbiri başqa bir dövlətdə tanınmaya və ya icra edilməyə bilər. Belə hallarda tərəflər adətən həmin dövlətin milli məhkəmələrinə müraciət etməli olurlar.

Bundan başqa, bəzi hallarda müvəqqəti təminat tədbirlərinin tətbiqi zamanı qarşı tərəfə əvvəlcədən bildiriş verilməməsi də vacib hesab olunur. Çünki əvvəlcədən məlumatlandırma müəyyən aktivlərin gizlədilməsi və ya gələcək qərarın icrasını çətinləşdirəcək addımların atılması riskini yarada bilər.

Nəhayət, arbitraj prosesindən sonrakı mərhələdə məhkəmələrin əsas rolu arbitraj qərarlarının tanınması və icrası, yaxud müəyyən hallarda həmin qərarların tanınmasından imtina məsələləri ilə bağlı olur.

Kamil Vəliyev: Gördüyünüz kimi, bu mövzuda kəsişən məqamlar kifayət qədər çoxdur və institutlar arasında funksional bağlılıq da olduqca güclüdür. Əslində, bu istiqamətdə ayrıca bir konfrans təşkil edərək məsələləri daha geniş və dərin şəkildə müzakirə etmək də çox faydalı olardı.

Buyurun, Aytac xanım.

Aytac Qasımova: İcazə versəniz, bütün həmkarlarımın çıxışlarının ümumi nəticəsi olaraq bir məqamı xüsusi qeyd etmək istərdim. Azərbaycanda bizim əsas məqsədimiz arbitraj mədəniyyətinin formalaşdırılmasıdır və bu, həqiqətən də, olduqca vacib bir istiqamətdir. Bu o deməkdir ki, biz arbitrajı yalnız alternativ mübahisə həlli mexanizmi kimi deyil, həm də ən effektiv və ədalətli həll vasitələrindən biri kimi qəbul etməliyik. Bu məqsədə çatmaq üçün biz həm institusional, həm də praktiki səviyyədə ardıcıl şəkildə addımlar atmalıyıq. Beynəlxalq arbitrların proseslərə cəlb edilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi və xüsusilə maarifləndirmə fəaliyyətlərinin gücləndirilməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Hesab edirəm ki, bu istiqamət uzunmüddətli perspektivdə arbitraj institutunun dayanıqlı şəkildə inkişafına xidmət edəcək əsas amillərdən biridir.

Çox sağ olun.

Kamil Vəliyev: Çox sağ olun, Aytac xanım. Günel xanım, buyurun.

Günel İsmayılbəyli: Çox sağ olun, təşəkkür edirəm, Kamil bəy. Deməli, Ruslan bəyin çıxışının sonu olaraq bəzi məsələləri qeyd etmək istəyirəm. Biz bayaq daxili məhkəmələrlə beynəlxalq arbitraj məhkəmələrinin arasındakı

mövcud əlaqədən və onların bir-birinə hansı yardım funksiyaları göstərə biləcəyindən danışdıq. Dünən çıxış edən şəxslər də bir neçə dəfə vurğulamışdılar ki, yerli məhkəmələrlə arbitraj məhkəmələri rəqib kimi görünsələr də, əslində rəqib deyillər. Həmin məhkəmələr bir-birini tamamlayıcı rolunu oyanayırlar. Çünki bayaq da qeyd etdiyimiz kimi, arbitraj məhkəmələrinin qərarlarının qəbul olunmasında və həmin prosesə baxılmasında yerli məhkəmələrin yardım funksiyaları mövcuddur. Məsələn, sübutların toplanması, arbitrların təyin olunması və ya arbitr səlahiyyətinə xitam verilməsi ilə bağlı məsələlər artıq yeni qanunvericilikdə nəzərdə tutulubdur. Ən əsas yardım funksiyalarından biri də, qeyd etdiyimiz kimi, müvəqqəti təminat tədbirləri ilə bağlıdır. Düzdür, yerli məhkəmələrdə müvəqqəti təminat tədbirləri ilə bağlı qərar qəbul edilməsi ilə əlaqədar bəzən hüquqşünaslar arasında müəyyən fikir ayrılıqları da olur. Hətta mən xatırlayıram ki, biznes komitəsində bu məsələ müzakirə olunarkən bəziləri hesab edirdilər ki, bu bir qədər *kompetenz-kompetenz* prinsipini[6] pozur, yəni arbitraj səlahiyyətinə yerli məhkəmələrin müəyyən müdaxiləsi kimi qiymətləndirilə bilər. Amma təəssüf hissi ilə qeyd edirəm ki, bununla praktikada vəkil olaraq rastlaşdığım hallardan çıxış edərək deyə bilərəm ki, bu qaçınılmazdır. Çünki baxmayaraq ki, arbitraj mədəniyyətinin formalaşmasının ilkin olaraq daha çox arbitraj tərəfləri və biznes subyektləri arasında baş verməli olduğunu düşünürük, yəni onlar arbitraj sazişini imzalayarkən qərarın könüllü icra olunacağını və əlavə tanınmaya ehtiyac qalmayacağını ehtimal edirlər, praktikada isə vəziyyət hər zaman belə olmur. Əgər biz bu gün burada icra və tanınma məsələlərini uzun-uzadı müzakirə ediriksə, bu o deməkdir ki, praktikada buna hər zaman riayət olunmur. Buna görə də yerli məhkəmələrə müraciət artıq qaçınılmaz olur. Yerli məhkəmələrə müraciət zamanı isə hər bir ölkənin yerli məhkəməsi üzərinə bəlkə də daha çox yük düşür. Azərbaycanda belə bir ifadə var: "Yuxarı baxırsan bığ, aşağı baxırsan saqqal". Yəni məhkəmələr burada çətin seçim qarşısında qalırlar. Hətta bununla bağlı ABŞ məhkəmə praktikasında "balancing test" yanaşması da mövcuddur. Burada nəzərdə tutulan odur ki, yerli məhkəmələr abitraj qərarlarının tanınması işlərinə baxarkən bir tərəfdən publik qaydanı, hər ölkənin daxili qanunvericiliyini və suverenliyini nəzərə almalıdır. Digər tərəfdən isə nəzərə almalıdır ki, bu beynəlxalq arbitrajdır. Dövlət Nyu York konvensiyanı ratifikasiya etməklə həmin arbitraj qərarlarının tanınması və icrasıyla bağlı müəyyən öhdəliklər götürmüş olur. Beləliklə, məhkəmə qərarı tanıyıb icraya yönəltdiyi halda daxili qaydalar çərçivəsində onun publik qaydaya, daxili qanunvericiliyə, ölkənin hüquqi və iqtisadi suverenliyinə zidd olub-olmadığını qiymətləndirməlidir. Eyni zamanda, əgər qərarı tanımasa, beynəlxalq səviyyədə öz öhdəliklərini icra etməmiş olacaq. Yəni

[6] Daha ətraflı bax: Gary B. Born, International Commercial Arbitration (3rd ed. 2021).

məhkəmədən bu amilləri tərəzinin gözünə qoyaraq balanslı qərar qəbul etməsi gözlənilir.

Bir qədər əvvəl qeyd etdik ki, publik qayda anlayışının vahid tərifi yoxdur və hər bir ölkə bu anlayışı öz qanunvericiliyində müəyyən qədər izah etməyə çalışır. Bununla belə, bu anlayış qanunvericilikdən daha çox məhkəmə praktikasında formalaşır. Yəni ölkələrdə məhkəmələr bu məsələlər üzrə qərar qəbul etdikcə, president xarakterli şərhlər formalaşır və publik qaydanın tərkibinə nələrin aid olduğu müəyyən olunur. Bununla bağlı müxtəlif yanaşmalar mövcuddur. Bir çox ölkələr publik qaydanı daha dar təfsir edir və hesab edirlər ki, hər bir məsələ bu anlayış çərçivəsində qiymətləndirilə bilməz. Amma bəziləri daha geniş təfsirə üstünlük verirlər. Azərbaycanda da artıq bu istiqamətdə məhkəmələrdə praktika formalaşır. Ali Məhkəmə də publik qaydaya aid olan məsələləri izah etməyə çalışır və həmin yanaşmalar artıq president xarakteri daşımağa başlayır. Məsələn, araşdırma edərkən qarşıma Rusiya məhkəmə praktikasına dair bir qərar çıxdı. Məlum olduğu kimi, müharibə və sanksiyalardan sonra tərəflərdən biri Rusiya şirkəti olan arbitraj qərarı ilə bağlı tanınma üçün Rusiyada müraciət etmişdi. Səhv etmirəmsə, onlarda prosedur bizdən bir qədər fərqlidir, yəni qərarın tanınması məsələsinə ilkin olaraq birinci instansiya baxır. Birinci və ikinci instansiya qərarı tanıyıb təsdiq etmiş, daha sonra isə yuxarı instansiya həmin qərarı ləğv edərək yenidən baxışa göndərmişdi. Məsələnin mahiyyəti qısaca ondan ibarət idi ki, tərəflərdən biri Rusiya şirkəti, digəri isə xarici şirkətdir. Razılaşmaya əsasən üç arbitr təyin olunmalı idi. Rusiya şirkəti ona verilən vaxt çərçivəsində öz arbitrini təyin etmədiyinə görə üçüncü arbitr məhkəmə tərəfindən təyin olunmuşdu. Həmin arbitr Ukrayna vətəndaşı olur. Beləliklə 3 tribunal formalaşır: biri İngiltərə, biri Niderland, biri isə Ukraynadan olan arbitr. Daha sonra qərarın tanınması məsələsinə baxılarkən məhkəmə publik qayda arqumentinə istinad etmişdi. Bildirilir ki, burada Rusiyanın qanunvericiliyinə həmin publik qayda adı altında uyğunsuzluq var. Məhkəmə hesab edir ki, ümumiyyətlə arbitrin təyin edilməsində qərəzsizliklə bağlı müəyyən şübhələr mövcuddur. Qeyd olunur ki, arbitrlərin "dost olmayan" ölkələrdən təyin olunması səbəbilə bu işə ədalətli baxılmasına dair şübhə ilə yanaşılıb. Bundan əlavə müqavilə üzrə öhdəliyi vaxtında icra etmədiyinə görə qərarda zərərin ödənilməsi tələb olunur və hesab edilirdi ki, müəyyən olunmuş zərərin məbləği həddindən artıq yüksəkdir.

Məhkəmənin mövqeyinə görə, burada fors-major hal nəzərə alınmalı idi, çünki şirkətin öhdəliyi icra edə bilməməsi hamıya məlum olan müharibə faktı ilə əlaqədar idi.

Kamil Vəliyev: Burada mənim bir sualım var, Günel xanım. Bu praktika, məncə, çox yaxşı və aktual bir nümunədir. Xüsusilə Azər müəllimin bir qədər əvvəl qeyd etdiyi qlobal proseslər fonunda bu məsələ daha da aktuallaşır. Bir az öncə Aytac xanım da mədəniyyətin formalaşması məsələsini qeyd etdi.

Məsələn, arbitraj kontekstində "mədəniyyət" ifadəsini eşidəndə və eyni zamanda praktikanın formalaşmasını düşündükdə belə bir sual yaranır ki, praktika və mədəniyyət, biz burada eyni konsepsiyalardanmı danışırıq, yoxsa mədəniyyətin öz ayrıca öz rolu var və onu praktikada fərqli şəkildə qiymətləndirməliyik? Bu baxımdan istərdim ki, Azər müəllimin təcrübəsindən irəli gələrək bir qədər akademik yanaşma eşidək. Biz ümumiyyətlə "mədəniyyət" deyəndə nəyi nəzərdə tuturuq? Əslində, bu sualı mən bütün panel iştirakçılarına ünvanlayardım. Eyni zamanda görürəm ki, Elçin müəllim də sual vermək istəyir. Əgər uyğundursa, buyurun.

Elçin Usub: Çox sağ olun, Kamil bəy. Mənə elə gəlir ki, Azər bəyə verilən sualdan əvvəl bu sualı da vermək yerinə düşər. Biz burada arbitraj mədəniyyəti və digər əlaqəli məsələlərdən danışırıq. Mən mərkəzin beynəlxalq elementli mübahisələrlə bağlı iddialı olmasını qəbul edirəm və xüsusilə Azər müəllimlə Nazlı xanımın qeyd etdiyi aspektlər baxımından onlara uğurlar arzulayıram. Bununla yanaşı, bildiyim qədərilə mərkəzin yerli arbitrajla bağlı da müəyyən iddiaları var və bu sahədə əsas mərkəzə çevrilmək niyyətindədir. Burada isə mən ən azı iki problem görürəm. Azər bəy, Nazlı xanım bu məsələdə sizin də fikirləriniz maraqlı olar. Birinci problem nədən ibarətdir? Biznes nöqteyi-nəzərindən yanaşsaq, xüsusilə yerli sahibkarlara, kiçik və orta sahibkarlara yeni bir alternativ mübahisə həlli mexanizmi təklif edirik. Onlara deyirik ki, burada peşəkar hüquqşünaslar və biznesi bilən şəxslər olacaq və onlar sizin mübahisənizə nisbətən qısa müddət ərzində baxacaqlar. Lakin Azərbaycan kiçik və orta sahibkarlığına mənim prizmamdan baxdıqda burada bir mədəniyyət və psixologiya məsələsi də var. Biz, bir tərəfdən, sovet sistemindən çıxmış cəmiyyətik və "mən öz problemlərimi özüm həll etməliyəm" düşüncəsi xüsusən də sahibkarlar arasında hələ tam formalaşmayıb. Əksinə, bizim sahibkarlar kiçik bir problem yaranan kimi dövlətdən müəyyən qayğı və hamiyəçilik gözləyirlər. Dövlətimiz də müxtəlif qurumlar yaratmaqla bu gözləntiləri qarşılamağa çalışır. İndi biz sahibkara deyirik ki, "sən bu komfort zonadan çıx, məsələn, Bakı Arbitraj Məhkəməsində müraciət et; orada peşəkar arbitrlar var, biznesi bilirlər və sənin problemini həll edəcəklər". Kiçik və orta sahibkar bunu niyə etməlidir? Çünki burada ən azı müəyyən risklər mövcuddur. Əsas risk ondan ibarətdir ki, ora müraciət etmək üçün, mən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü kimi bunu xüsusi vurğulamalıyam, daha peşəkar bir hüquq məsləhətçisi tapmalıdır. Dövlət məhkəmələrinə müraciət etdikdə də müəyyən xərclər yaranır, lakin arbitrajda sahibkar daha çox xərc çəkməli ola bilər. Burada Azər bəy, Nazlı xanım iştirak edir, yəqin ki, siz də orada ödənişsiz işləməyəcəksiniz və bunun müəyyən xərcləri olmalıdır. Alternativ olaraq isə kommersiya məhkəmələrimiz mövcuddur. Mənə elə gəlir ki, xüsusən kommersiya mübahisələri üzrə məhkəmələr bu yükün öhdəsindən gəlirlər. Yəni mədəniyyət məsələsindən əvvəl, biznes

baxımından bu bu sual meydana çıxır: Azərbaycan sahibkarı yerli arbitraj baxımından niyə sizə müraciət etməlidir? Çünki dediyim kimi, podyumda əyləşənlərin üç nəfəri Bakı Kommersiya Məhkəməsinin Rəyasət Heyətinin üzvləridir. Bu baxımdan biznesin inkişafı naminə, düşünürəm ki, bu həm də sizin üçün bir çağırışdır və fikirləriniz mənim üçün maraqlı olar.

Fürsətdən istifadə edib ikinci məqamı da vurğulamaq istəyirəm. Yerli arbitrajın inkişafı baxımından bu məsələni imkan olduqca həmişə qaldırıram. Çünki Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin bu layihəsində çalışmışam. Bizim ən problemli sahələrimizdən birinin maddi hüququn, xüsusilə də korporativ hüququn inkişafı olduğunu görmüşəm. Azərbaycan maddi hüququnun, xüsusilə Mülki Məcəllənin korporativ hüquqa dair hissəsi hələ də beynəlxalq standartlara uyğun deyil. Bu da sizin üçün ayrıca bir çağırışdır. Burada sual yaranır: fərq nədir? Mən daha aşağı xərclə dövlət məhkəməsinə müraciət edəcəyəm, onlar dövlətdən maaş alırlar və bu məsələni pis-yaxşı həll edəcəklər. Lakin bizneslə daha çox əlaqəsi olan şərti olaraq hakimlər, arbitrlar da nəticə etibarilə eyni maddi hüquqa istinad edəcəklər. Maddi hüququn özü kifayət qədər inkişaf etməyibsə, burada nə baş verəcək? Siz bunu bir çağırış kimi görürsünüzmü? Bu istiqamətdə biznesin inkişafı baxımından başqa hansı problemlərlə qarşılaşırsınız? Bununla bağlı nə düşünürsünüz?

Kamil Vəliyev: Çox sağ olun. Çox aktual bir məsələyə toxundunuz. Biz bu panelə gəlməzdən əvvəl Azər bəylə müəyyən müzakirələr aparmışdıq və müzakirə apardığımız mövzulardan biri də məhz sizin qeyd etdiyiniz bu sual idi. Mən istərdim ki, Azər bəy bu istiqamətdə öz dəyərli fikirlərini bölüşsün. Sözün düzü, bu məsələ mənim üçün də çox maraqlıdır.

Azər Əliyev: Çox təşəkkür edirəm, Elçin bəy və Kamil bəy, suallarınıza görə. Mədəniyyətlə bağlı məsələ, məncə, ən vacib məsələlərdən biridir. Biz, hüquqşünaslar, hüququn dəyərini çox yüksək qiymətləndiririk. Əlbəttə ki, hüquq yüksək dəyərə malik bir institutdur. Amma, eyni zamanda bu, dövlətin və tərəflərin əlində olan ən iti alətlərdən biridir. Bununla belə, münasibətlərimizin 95 faizindən çoxu hüquqla tənzimlənmir, sadəcə olaraq biz müəyyən qaydalara riayət edirik. Məsələn, burada hər kəs müəyyən qaydada əyləşib, halbuki heç bir qanunda yazılmayıb ki, kim necə əyləşməlidir. Yəni ictimai tənqidin olması çox vacib bir amildir. Bu baxımdan mədəniyyətin formalaşması xüsusi əhəmiyyət daşıyır. Qeyd olunduğu kimi postsosialist düşüncə tərzi və inam məsələləri burada mühüm rol oynayır. Bu, əlbəttə ki, vacibdir. Bu gün milli məhkəmələrə müraciət edən şəxslərin əksəriyyətinin məqsədi heç də məhkəmə qərarını icra etdirmək deyil. Məhkəməyə müraciət etməkdə əsas məqsəd, çox zaman tərəflərin haqlı hesab etdiyi yanaşmanı sonadək müdafiə etməsi olur. Bu isə bizim icra icraatı ilə bağlı mövcud problemlərdən irəli gəlir. Bəs biz bu postsosialist düşüncə tərzindən necə çıxacağıq? Əlbəttə ki, bu sualın birinci ünvanı məhkəmə

sisteminin özü, inam, həmçinin sistemə olan inam və etibar məsələsidir. Amma arbitraj sahəsində yanaşma bir qədər fərqlidir. Arbitraj sahəsində ən çox oxunan kitablardan biri hüquq kitabı deyil. Əlbəttə ki, Gary Born və sair digər müəlliflərin kitabları var, lakin onlardan əlavə Garth və Dezaleyin birlikdə yazdığı "*Dealing in Virtue*" kitabı[7] da bu sahədə mühüm əsərlərdən biridir. Arbitr öz xidmətlərini niyə davam etdirə bilir? Ona görə ki, onun reputasiyası var və ona inanırlar. Tərəflər də bu inama əsaslanaraq ona deyirlər ki, "sən bizim mübahisəmizi həll et və biz bu qərarı icra edəcəyik". Əgər iş gedib məhkəməyə çıxırsa, deməli, orada artıq ciddi problem var və arbitraj sistemi müəyyən mənada çöküb. Normal işləyən arbitraj sistemində iş yalnız çox nadir hallarda məhkəməyə çıxmalıdır. Əlbəttə ki, belə hallarda məhkəmə arbitrajı qorumalıdır. Amma mədəni baxımdan bu normal hal hesab olunmamalıdır. Qlobal sistemə baxdıqda bizim arbitrajın da kifayət qədər problemləri mövcuddur. Arbitrajdan sui-istifadə oluna bilər, çirkli pulların yuyulması üçün istifadə edilə bilər, arbitrajda korrupsiya problemləri də mövcud ola bilər. Hətta "*cib arbitrajı*"[8] ("pocket arbitration") deyilən anlayış var ki, böyük şirkətlər özlərinə yaxın arbitraj məhkəmələri yaradır. Mən düşünürəm ki, bu müstəvidə bizim qanunverici çox yaxşı addımlar atıb və bunun qarşısının alınması üçün kifayət qədər yüksək standartlar müəyyən edilib. Amma bu şəraitdən əlavə müvafiq mühitin formalaşması həm arbitrlərimizin, həm də ümumilikdə cəmiyyətin arbitraja olan yanaşmasından asılıdır. Biz postsosialist yanaşmanı kənara qoyub, məsələn "ASAN xidmət" modelində etdiyimiz kimi yeni bir mədəniyyət yarada biləcəyikmi? Orada köhnə yanaşma tamamilə dəyişdirildi, dövlət qulluğundan istifadə ilə bağlı yeni bir mədəniyyət formalaşdırıldı. Yoxsa arbitrajı mövcud problemlərin davamı kimi həyata keçirəcəyik? Mən hesab edirəm ki, "*Dealing in Virtue*" kitabı bu, müəyyən mənada Bourdieunun peşə sosialogiyası və peşə mədəniyyətinin necə formalaşması ilə bağlı düşüncələrindən irəli gəlir. Bu baxımdan bir çox şəxslərin rolunu, xüsusilə də Kəmalə xanımı qeyd etmək istərdim. Azərbaycanda bu işə başqa bir şəxs deyil, məhz Kəmalə xanımın başlaması çox vacib amildir. Çünki Kəmalə xanımın həm obyektiv mənada Fransanın professoru olması, həm də subyektiv mənada Azərbaycan və Fransaya münasibətdə yaratdığı müsbət aura bu məqam üçün çox vacibdir. Yenə də qeyd edirəm ki, burada əsas məsələ şəxslərin, ümumiyyətlə, sistemə inamının yaranmasıdır. Biz bu işdə Kəmalə xanıma nə qədər və hansı formada dəstək verəcəyik, bu artıq ikinci məsələdir. Eyni zamanda, beynəlxalq arbitrajın xaricə açılması o deməkdir ki, biz kənardan olan şəxsləri də cəlb edəcəyik, bizim hüquqşünaslar xarici

[7] Daha ətraflı bax: Yves Dezalay & Bryant G. Garth, Dealing in Virtue: International Commercial Arbitration and the Construction of a Transnational Legal Order (1998).

[8] Ivan Philippov, The Problem of "Pocket Arbitration Courts" in Russia: Finally Resolved? (2015), https://cisarbitration.com/2015/04/07/the-problem-of-pocket-arbitration-courts-in-russia-finally-resolved/ (son baxış May 8, 2026).

hüquqşünaslarla daha çox münasibətlər quracaq, prosesin aparılması mədəniyyətini birbaşa öyrənə biləcəklər. Bizim hakimlər də həmin proseslərdə xarici vəkillərin iştirakını görəcəklər və bununla da bütün ümumi sistemin inkişafına böyük bir töhfə verə bilərlər. Əlbəttə ki, bunun üçün bunların düzgün inkişaf etməsi əsas şərtdir. Son olaraq, qeyd etmək istərdim ki, arbitraj sisteminin özlüyündə mühüm hüquqi üstünlüyü var. Arbitrajın üstünlüyü ondan ibarətdir ki, arbitraj mütləq qaydada dövlət hüququnu tətbiq etməyə borclu deyilir. Əlbəttə ki, arbitraj Azərbaycan Respublikasının korporativ hüququnun seçilmiş hüquq və digər əlaqəli məsələlər kimi müəyyən vacib hissələrinə bağlıdır. Amma başqa bir sahədən nümunə gətirə bilərik ki, böyük tikinti layihələrinin tam əksəriyyəti FIDIC qaydaları ilə tənzimlənir**.** FIDIC qaydaları tətbiq olunduqda Azərbaycan məhkəmələri onları tətbiq olunan hüquq kimi birbaşa tətbiq edə bilməz. Çünki bu, heç bir dövlətin hüququ deyil. Amma arbitraj birbaşa FIDIC qaydalarını tətbiq edə bilir və bundan sonra da bizim Mülki Məcəllə həmin qərarın icrasını təmin edir. Məhz buna görə FIDIC müqaviləsində həmişə arbitraj qərarı vacibdir. Hətta mən deyərdim ki, FIDIC müqaviləsinə milli məhkəmənin yazılması ən böyük səhvlərdən biri olardı. Azərbaycan, Almanya və ya Fransa olmasının fərqi yoxdur, çünki orada ciddi hüquqi konflikt yarana bilər. Əgər bu 3 amili birlikdə nəzərə alsaq, mən düşünürəm ki, potensial çox böyükdür. Bu potensialı necə reallaşdıracağımız isə artıq ikinci bir sualdır. Ümid edirəm, üç-dörd ildən sonra burada yenidən görüşər və bu barədə daha konkret nəticələr üzərində danışarıq.

Kamil Vəliyev: Məncə, Azər bəy siz çox mühüm məsələlərə toxundunuz və sualı əhatəli şəkildə cavablandırdınız. Təbii ki, diskussiyamızı daha da davam etdirə bilərik, həqiqətən də çox aktual bir sualdır. Nazlı xanım, buyurun. İstərdim ki, qısa şəkildə fikirlərinizi bildirəsiniz, çünki vaxtımız məhduddur.

Nazlı Əhmədova: Vaxt ən önəmli amillərdən biridir və arbitrajda da vaxt xüsusi əhəmiyyət kəsb edir. Elçin bəyin sualına çox qısa şəkildə cavab verməyə çalışacağam. Nə üçün tərəflər formalaşmış məhkəmə sistemi olduğu halda arbitraja müraciət etməlidirlər? Əlbəttə ki, məhkəmə sistemi hər zaman öz yerində olacaq. Dövlət mövcud olduqca onun dövlət məhkəmələri də olacaq. Çünki dövlət məhkəmələri həmin dövlətin əsas atributlarından biridir. Hakimiyyət bölgüsü prinsipinin tətbiq edildiyi dövlətlərdə məhkəmə hakimiyyəti müstəqil hakimiyyət qoludur. Amma "arbitraj hakimiyyəti" deyilən ayrıca hakimiyyət qolu yoxdur. Yəni arbitraj alətdir, o müstəqil hakimiyyətin qolu deyil. Arbitraj mediasiya, danışıqlar və Mülki Məcəllənin dili ilə desək, pretenziya mexanizmləri kimi bir vasitədir. Sadəcə olaraq, bu alət son illərdə kifayət qədər inkişaf edərək daha mükəmməl forma və məzmun qazanıb, institusional olaraq formalaşıb. Hazırda Azərbaycan da bu oturuşmuş sistemə qoşulmaq istəyir. Başqa sözlə desək, Azərbaycan "mən də

bu xəritədə varam" demək istəyir. Qlobal perspektivdən yanaşdıqda birinci paneldə Kəmalə xanım çox gözəl bir ifadə işlətdi: "Arbitraj artıq okeandır, biz də çay kimi axıb o okeana tökülmək istəyirik". Yəni sanki biz sərhədli və o okeanla əlaqəsi olmayan bir akvatoriyadan çıxaraq artıq həmin o okeanla əlaqə yaratmaq mərhələsindəyik. Məncə, bu çox uğurlu bənzətmədir.

Yenidən Elçin bəyin sualına qayıdıram. Siz məhkəməyə müraciət etdikdə kiçik, orta və ya iri sahibkar olmağınız fərq etmir, hər bir halda məhkəmənin qaydaları ilə oyanıyırsınız. Sizin mübahisəniz məhkəmənin və prosessual qanunvericiliyinin tələb etdiyi formaya salınır. Arbitraj isə məcazi mənada desək, sizin mübahisənizin formasını alır. Çünki arbitraj qaydaları adətən elə yazılır ki, tərəflərə həddən artıq çeviklik verilir. Çeviklik dedikdə arbitrajın prosessual qaydalarının daxilində müxtəlif seçim imkanları mövcudluğu nəzərdə tutulur. Tərəflər hətta qarşılıqlı razılaşma əsasında, ümumiyyətlə, müəyyən maddələrin tətbiq edilməməsinə və ya mübahisəyə sürətləndirilmiş qaydada baxılmasına qərar verə bilərlər. Yəni burada çeviklik mübahisənin xarakterindən asılı olaraq dəyişir. Əlbəttə ki, Azər bəyin qeyd etdiyi kimi, əgər söhbət FIDIC çərçivəsində çoxpilləli və mürəkkəb tikinti mübahisəsindən gedirsə, onu həddindən artıq sadələşdirmək və qısaltmaq olmaz, çünki bu halda mübahisənin məzmunu itə bilər. Amma məsələn, bir neçə yüz minlik mal alqı-satqısı mübahisəsidirsə, onu niyə mürəkkəbləşdirək? Məsələn, ona nə üçün pretenziya qaydasında bildiriş göndərib 10, 20 və ya 30 gün gözləmək lazımdır? Arbitraja isə birbaşa müraciət etmək mümkündür. Bu birinci məqamdır. İkinci məsələ beynəlxalq aspektlə bağlıdır, biznes subyektləri beynəlxalq arbitraj elementi ilə bağlı Azərbaycana gələ bilərlərmi? Mən deyərdim ki, burada yeni arbitraj mərkəzi olmasının özü müəyyən fürsətlər yaradır. Azər bəyin də qeyd etdiyi kimi, beynəlxalq arbitraj sahəsində, xüsusilə Rusiya arbitraj işləri ilə bağlı prosesləri izləyənlər bilir ki, bu artıq böyük bir "saga"ya çevrilib. Hətta onun özündə müvəqqəti təminat tədbirləri, qərarların tanınması və icrası, eləcə də yeni nəzəriyyə və konsepsiyalarla bağlı ikinci bir arbitraj bazarı formalaşıb. Məhz belə bir xaos fonunda biz bu böhranı fürsətə çevirməyə çalışaraq, mədəniyyətlərin qovuşduğu bu məkanda belə bir arbitraj mərkəzi yaratmağı təklif edirik. Gerisi isə artıq bizim bu fürsəti necə dəyərləndirəcəyimizdən asılıdır.

***Kamil Vəliyev*:** Çox sağ olun, Nazlı xanım. Buyurun, Şirin xanım, qısa olaraq sizi də dinləyək.

Şirin Əliyeva: Vaxtımız məhdud olduğu üçün qısaca qeyd etmək istəyirəm ki, Azər bəy mənim rəyimi çox dəqiq ifadə etdi. Bu gün gənc nəslin, o cümlədən mənim 17 yaşlı oğlumun "ASAN xidmət"dən istifadə edərkən bu sistemin arxasında duran irimiqyaslı institusional transformasiyanı tam dərk etməsi çətindir. Halbuki xarici pasport və digər sənədləri almaq üçün səhər erkəndən uzun növbələrə durduğumuz dövrlər hələ də bizim

yaddaşımızdadır. Bu müqayisə dövlət xidmətlərində hansı dərəcədə böyük bir inzibati və mədəni keçidin baş verdiyini aydın göstərir. Azərbaycan bu cür innovativ islahatlar üçün ən əlverişli yerlərdən biridir. Bunu tarixi və sosioloji faktorlar da şərtləndirir. Şəxsən mən hazırda Azərbaycan prospekti adlanan ərazidə- sovet dövründən bəri 3 fərqli dinin: Sinaqoqa, Kilsə və Məscidin fəaliyyət göstərdiyi bir mühitdə böyümüşəm. Həmkarların da qeyd etdiyi kimi, cəmiyyətimiz həm multikultural dəyərlərə, həm də adaptiv mədəniyyətə malikdir. Biznes və hüquq dilində ifadə etsək, bu, yüksək daxili çeviklik var deməkdir. Cəmiyyətimiz inkişafa yönəlmiş hər bir mütərəqqi təşəbbüsü çox qısa müddətdə mənimsəyir və adaptasiya olur. Bu baxımdan "ASAN xidmət" artıq qlobal səviyyədə qəbul olunmuş yüzlərlə uğur nümunəmizdən yalnız biridir. Ölkəmizə gələn çoxsaylı beynəlxalq nümayəndə heyətlərinin bu uğurlu idarəetmə modelini öyrənmək üçün məhz həmin institutu ziyarət etməsi bunun bariz sübutudur. Hesab edirəm ki, yeni yaradılmış bu arbitrajın mərkəzi də eyni istiqamətdə inkişaf etmək, tətbiq etdiyi mütərəqqi mexanizmlərlə ölkəmizin növbəti beynəlxalq uğur nümunəsinə çevrilmək üçün bütün zəruri potensiala malikdir.

Kamil Vəliyev: Çox sağ olun, Şirin xanım. Mən yekunda bir daha hörmətli panel iştirakçılarını təbrik etmək və təşəkkürümü bildirmək istərdim. Məncə, olduqca maraqlı bir müzakirə oldu. Hər birinizə təşəkkür edirəm, gəldiyiniz üçün çox sağ olun

Panel Discussion: Investment Arbitration at a Crossroads: Regional Trends and Global Implications

PARTICIPANTS:

Sergei VATAEV, *moderator*

Partner at Advocates' Bureau Legit

Anna GUİLLARD SAZHKO

Independent Arbitrator and Counsel
specialized in investment and commercial arbitration

Yulia LEVASHOVA

Associate Professor at Nyenrode Business University,
Director of the Dispute Prevention Program at the Asia Pacific FDI Network

Marisa PLANELLS-VALERO

Legal Counsel,
International Centre for Settlement of Investment Disputes (ICSID)

Eda MANAV ÖZDEMİR

Head of the International Arbitration and Alternative Solutions Department,
Directorate General of Law and Legislation, Secretariat General of the Presidency of the Republic of Türkiye

Nada SADER

Partner at Sader Arbitration

Kamalia Mehtiyeva: Good afternoon, everyone. Thank you so much to everyone for being back. It is truly a pleasure to see such a distinguished audience gathered here today. Without further ado, I would like to pass all the word to my dear colleague, Mr. Sergei Vataev, who is an attorney and an international arbitrator, very well known in the international arena. At the same time, he's also a court member of the International Arbitration Court of the ICC, of the International Chamber of Commerce. He is based in Kazakhstan. However, the geographical location has absolutely no meaning in international arbitration. It can be based anywhere. And Sergei is a perfect example of how, no matter where we live in practice, as you can see, we sit in tribunals with people from diverse origins. So I'm very privileged that Mr. Vataev has accepted to moderate the panel which is devoted to international arbitration. He will introduce the extraordinary lineup of speakers. So, Mr. Vataev, the floor is yours.

Sergei Vataev: Thank you very much and certainly, for this great opportunity to be a moderator of this panel. Today's session is about investment arbitration. And I'd like to first give the floor to Anna for maybe a short overview of what investment arbitration is and how that differs from commercial arbitration or, generally, what it is and how to go with that.

Anna Guillard Sazhko: Thank you very much, Sergei. To better explain the idea of investment arbitration, I would like to start with a practical example.

Imagine that you have a client who is an investor from France or maybe from Azerbaijan who decided to build a nuclear power plant in Kazakhstan. Then, one day, an election takes place, the government changes and the minister decides to review tariffs. And your tariff and licence are revoked, or the conditions are changed overnight. What do you do? You call your lawyer and ask what can be done. Usually, you don't consider local courts of the country, which may not be entirely objective towards you. This is precisely the moment where investment arbitration comes into play.

Investment arbitration is like a seatbelt for investors and entrepreneurs, working when politics hits the brakes. And usually, imagine that you deal with cross-border contracts that deal with the risk that doesn't lie only in the text of the contract but mostly in politics. And the gap between this contractual risk, investment risk and political risk explains why arbitration exists. In one sentence, investment arbitration allows an investor, a private company or an individual to bring a claim against a foreign state to be considered by an independent tribunal. But why did the states accept such a clause? Why did the states, which are usually subject to public law, accept it being sued directly by the investors?

So this concept emerged in the early 1950s, when there were many new independent states that sought to attract investments. But at the same time, foreign investors were afraid to invest and they needed to have some source

of assurance of their trust. So this was the time when the ICSID, the Convention on the Settlement of Investment Disputes between States and Foreigners, was born. We are privileged today to have Marisa with us, who will share more insights on the history and how the ICSID operates today.

So on one side, there was this ICSID Convention, on the other side, there were a lot of bilateral treaties. As of today, there are over 2,000 treaties worldwide, with Azerbaijan having concluded more than 50. These treaties provide a standard of protection for the investors. And many of those concluded in the 1990s offered greater protection for investors than for states.

Just very briefly, what is the difference between investment and commercial arbitration? In investment arbitration, you have parties that are a private individual or a company and a state. In commercial arbitration, it's always just companies or individuals. But at the same time, states can also act on commercial arbitration, but only in their commercial capacity.

What are the advantages? It's to have a neutral and efficient form, providing a platform for dispute resolution, which will result in an enforceable award. Whereas for the investment arbitration, the nature is different and the main goal is to provide protection for the investors. But let's get back to our example. While assessing the investment claim, we need to know what the background of this was. Do we know the value of the bilateral treaty between the countries? Or maybe there was an investment contract signed specifically with this investor, or there is investment litigation adopted in this matter. So, first, we need to identify the most appropriate legal framework and clarify the legal background. In such situations, investors usually invoke fair and equitable treatment. We will then need to prove whether this measure was arbitrary, whether the state was pursuing some legitimate objectives, or whether it was just arbitrary. In some cases, which is not uncommon in investment disputes, there may even be criminal investigations initiated against investors. I will briefly note that we are now living in a new era of investment arbitration. In recent years, there has been significant backlash, with criticism that investment arbitration is overly pro-investor, involves high costs and produces inconsistent awards. Moreover, concerns have been raised about the limited financial resources of certain states to adequately defend themselves in such proceedings. Overall, it can be observed that investment arbitration is currently undergoing a period of reform, which may significantly influence its future development. Thank you.

Sergei Vataev: Thank you very much, Anna. Well, I think just to kind of quickly summarise, the beauty of investment arbitration is that it gives a chance to investors to resolve disputes, not only under the auspices of the sovereign and its laws, but it also gives an investor a chance to bring the case before the neutral and objective tribunal, beyond the jurisdiction of the recipient state, essentially. And basically, it gives an investor a second bite of

the apple, so to say, when the other chances to reach justice are exhausted. And one of the things you just mentioned is the arbitrary treatment and I understand that that brings us to the point of principle of fair and equitable treatment - FET and I would like to ask Professor Levashova to tell us a few words about this important principle.

Yulia Levashova: Thank you very much, Sergei. Based on your question, why FET is considered to be one of the most important standards in international investment law, let me first start with a short anecdote. A long time ago, in 2011, when I started working on my PhD on FET standards, one of the very important authorities in the field of international investment law told me, "It all has been done already. Why are you going to write about FET standards?" And in fact, already in 2011 there were a lot of articles and some books, because the FET always was a very contested standard in international investment law. But it kept me going and now even in 2025 there are still a lot of questions about the FET standards, because if we look at the international investment cases, there's still a lot of uncertainty. So it brings me to the point that there's still a lot to discuss. Let me give you a little bit of statistics in terms of the FET. Why is it so important? According to the United Nations Conference on Trade and Development, the FET standard is included in 95% of all international investment agreements and at this point, we have about 3,000 international investment agreements worldwide. So basically, in each of them, except 5%, you will find the FET standard. It's usually a broadly formulated provision and in about 80% of all treaties, it is formulated as an open standard.[1] Basically, it, of course, depends on the treaty, but basically it states that the investors should be afforded fair and equitable treatment to all of their investments.

So as you can imagine, that leaves a lot of room for interpretation. And that's why and it's not surprising, that the FET remains central in most of the dispute settlement. Again, according to the latest statistics of the United Nations Conference on Trade and Development, in approximately 85% of all investment cases, investors argue that their right to obtain fair and equal treatment has been violated.[2] In practice, it continues to be the primary legal basis on which their investment claims are built. So why is it so attractive and so invoked by investors? There are several reasons, of course, but in my view, the most important one is that FET covers violations, but it could be difficult to argue under other specific investment protection standards such as expropriation or prohibition of discrimination. In the words of the German lawyer and academic Roland Plecher, who said that the FET provision is like

[1] Jeremy Sharpe, Lecture, *Fair and Equitable Treatment* 1 (Jun. 18, 2025), https://legal.un.org/avl///pdf/ls/Sharpe_Transcript_video_1_e.pdf (last visiteted Apr. 24, 2026).

[2] *Id.*, 2.

a black box full of surprises, you never know what you will get. In practice, I completely agree with that because it's quite difficult to predict how, in a specific case, the arbitral tribunal will interpret the scope of the FET provision.

As I've already mentioned, specifically the interpretation of fair and equal treatment has been heavily criticized in the past for being insufficiently precise, for inconsistent case law and, in particular, for a lack of adequate consideration of the public interest. This critique is primarily based on the earlier cases conducted between 2000 and 2005, when the tribunals had the first opportunity to interpret the requirement FET and they established a rather broad scope of possible obligations, which could lead to the breach of this provision. This included the obligation of the whole state to act with full transparency towards the investor. One of the first landmark decisions in this regard was PACC v. Mexico,[3] which also addressed obligations such as respecting investors' legitimate expectations and providing stable conditions within the state. So those elements of the FET standard put the threshold for the state behaviour towards the investor pretty high. But the beauty of the current treatment standard, if I can formulate it like that, is its dynamic nature. In the past decade, the case law really evolved and the treaty drafting practise has evolved as well, specifically in relation to establishing a certain balance between the investor protection and the state's right to regulate.

Sergei Vataev: Thank you very much. I believe that it's about time to switch from general principles to more specific issues and I would like to ask Marisa to tell us a few words about ICSID and the key concepts of this jurisdiction and maybe just some of the recent developments.

Marisa Planells-Valero: Thank you, Sergei and thank you also to Kamalia and her team for their very, very kind invitation to be here. For me, it's truly, truly an honour to be here on behalf of ICSID.

